# “Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılmasının müvəqqəti Qaydası”nın təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının qərarı*

Azərbaycan Respublikasının ərazisində koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin dayandırılması ilə əlaqədar, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 9.2-ci bəndini və 16-cı hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyası **qərara alır:**

**1.** “Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılmasının müvəqqəti Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Nazirliyin Aparatının Hüquq şöbəsinə (A.Cəfərov) tapşırılsın ki, bu qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Nazirliyin Aparatının Ümumi və məktəbəqədər təhsil şöbəsi (V.Yaqublu) və Təhsilin inkişafı proqramları şöbəsi (N.Hüseynova) bu qərardan irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**4.** Nazirliyin Aparatının İnformasiya şöbəsi (E.Məmmədov) bu qərarın ümumi təhsil müəssisələrinə göndərilməsini, “Azərbaycan müəllimi” qəzetində dərc edilməsini və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**5.** Bu qərar 2020-ci il oktyabrın 1-dək qüvvədədir.

**Kollegiyanın sədri,**
**Nazir**
**Ceyhun Bayramov**
*21 may 2020-ci il*
*KQ-03*